# Yusif Vəzir Çəmənzəminli: "Həqiqi ana"



**Nizamlı milli bir məktəb qurtarmış, çox bilikli, açıq fikirli bir qadın təsvir edin. Bu anadır. Bunun qəlbi dili ilə, dili də qəlbi ilə müvafiqdir. İkisi təmiz, ikisi də pak və pakizə. Həqiqi ana həm ruhən, həm də cismən salamat olar. Uşaqlar gördüyünü götürər. Ana bunu gözəlcə düşünüb, onun üçün həmişə özünün islahına çalışır ki, balaları ondan pis hərəkət görüb götürməsinlər. Ana heç vaxt təklikdə özünə xoşbəxtlik istəməz,ana övladlarının xoşbəxtliyinə tamaşa edib ondan ləzzət aparar. Övladı olmadıqda heç bir şey ananı xoşbəxt edə bilməz. Qızıl, cavahirat, şöhrət və ad analara təskinlik verə bilməz.**

Asudəlik ananın əxlaqını pozmaz, çünki ana kamildir, namus ona övladları qədər qiymətli və əzizdir.

"Ana Milli bayramlarımızı çox əziz tutar. Ələlxüsus Novruz bayramı şairanəliyi ilə anaya artıq dərəcədə xoş gələr. Neçə gün qabaqdan evlər süpürülər, silinər, hər yer təmizlənər. Sonra külfətin üzvləri yuyunub geyinib böyük bir şadlıqla bayram edərlər, Şirnilər düzülər, xonçalar bəzənər, evlər çıraqban olar. Milli musiqimiz çalınar. Rəqslər olunar. Milli musiqinin təsiri heç vaxt insandan aralanmaz. Ana övladlarını da milli musiqimizə aşina edər.

Ana mütəəssib deyil, nikbindir. Əqidəli həyatpərvər və dünya tərəfdarıdır. Ana xalqının ucalığına, ağıl və istedadına tabe bir halda şükürlər edər. Belə olan halda uşaqlar hər bir xurafatdan uzaq olub həqiqi bir təsəvvürə malik olurlar. Belə bəslənmiş balalar diriliyi sevirlər, bu dünyanın xoşbəxtliyini düşünüb ona tərəf meyl və həvəs göstərirlər.

**Ana insaniyyətin məşəl aparanıdır. Bu nə qədər qabil olsa, bir o qədər insaniyyətin getdiyi yolu lazımınca işıqlandırmağa qadir olar. Bunu həqiqi analar gözəlcə düşünürlər və çalışırlar ki, daha da qabil və kamil olsunlar."**

Ədələt.- 2020.- 13 mart.- S.3.

**1914-cü il**